*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 176-181* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.176*

# XX əsrin əvvəllərinin problemləri Əli Nəzminin felyetonlarında

**Samirə Quliyeva**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: samiraguliyeva1@gmail.com

**Annotasiya.** Azərbaycan mətbuatının parlaq nümayəndələrindən biri, görkəmli ədəbiyyatşünas Əli Nəzmi yaradıcılığında felyeton janrına tez-tez müraciət edib. Həm də "Molla Nəsrəddin" jurnalının fəal yazarlarından olan Ə.Nəzminin yaradıcılığında rast gəlinən bir sıra felyetonlarında dövrün mühüm çatışmazlıqlarına toxunulub. Müasirləri kimi, o da xalqın qarşılaşdığı çətinliklər, məişət, ictimai-siyasi problemləri işıqlandırdığı əsərləri ilə dövri mətbuatda tez-tez çıxış edib.
Ədibin felyetonları təhsilsizlik, maarifsizlik, dini gerilik, xurafat, uşaqların tərbiyəsi, insan hüquqları uğrunda mübarizə, ədalətsizlik, qadın azadlığı və başqa mühüm problemlər, çatışmazlıqları əhatə edir. Görkəmli jurnalist Əli Nəzminin qələmi onun əsas silahı idi. O, məhz qələminin gücü hesabına, sənətkarlıq bacarıqları sayəsində ədəbiyyatımızda və mətbuatımızda gözəl nümunələr yarada bilib, xalqımızın firavanlığı uğrunda əvəzolunmaz mübarizə çevrilib.
**Açar sözlər:** Əli Nəzmi, felyeton, mətbuat, ədəbiyyat, "Molla Nəsrəddin" jurnalı

**Məqalə tarixçəsi:** göndərilib – 19.03.2023; qəbul edilib – 07.04.2023

# The problems of the early twentieth century in the feuilletons of Ali Nazmi

**Samira Guliyeva**
Institute of Manuscripts named after Mohammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: samiraguliyeva1@gmail.com

**Abstract.** One of the brightest representatives of the Azerbaijani press Ali Nazmi, often referred to the genre of feuilleton. One of the active writers of the magazine "Molla Nasreddin" A.Nazmi touched upon the important shortcomings of the time in his feuilletons. Like his contemporaries he often appeared in periodical press with his works which covered the difficulties faced by the people, domestic and socio-political problems.
His feuilletons cover education, enlightenment, religious backwardness, superstition, child rearing, struggle for human rights, injustice, women's freedom and other important problems and shortcomings. The famous writer and journalist Ali Nazmi's pen was his main weapon. He was able to create beautiful examples in our literature and press due to the power of his pen, his artistic skills and became an invaluable fighter for the well-being of our people.
**Keywords: Keywords:** Ali Nazmi, feletons, press, literature, "Molla Nasraddin" journal

**Article history:** received − 19.03.2023; accepted − 07.04.2023

## Giriş / *Introduction*

Yaradıcılığında felyeton janrına tez-tez müraciət etmiş ədiblərdən biri də Əli Nəzmidir. Həm də "Molla Nəsrəddin" jurnalının fəal yazarlarından olan Ə.Nəzmi bir sıra felyetonlarında dövrün mühüm məsələlərinə toxunmuşdur. "Satirik şeirlərini "Məşədi Sijimqulu", "Kefsiz" və s. gizli imzalarla çap etdirmişdir. "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndəsi kimi tanınmışdır. Felyeton və satirik şeirləri satirik-yumoristik jurnallarda, xüsusən "Molla Nəsrəddin" jurnalında müntəzəm çap olunmuşdur" [1, s.4]. O, şair kimi tanınsa da, "Molla Nəsrəddin"də satirik yazıları ilə də şöhrət qazanmışdır. Ə.Nəzminin felyetonları öz satirik xüsusiyyətləri ilə seçilirdi. Onun qələmə aldığı felyetonlarda janrın mühüm priyomları yerində işlənmiş, sadə və anlaşıqlı dildə olması isə bu əsərlərin insanlar tərəfindən asanlıqla qavranılmasına kömək olmuşdur. Təsadüfi deyil ki, Cəlil Məmmədquluzadə yaradıcısı olduğu dərginin ən fəallarından olan Əli Nəzmini dahi satira ustası Mirzə Ələkbər Sabirlə eyni pilləyə qoymuşdur. Mirzə Cəlilin bu fikrini sonralar ədəbiyyatşünas alim Mir Cəlal təsdiq edərək yazırdı: "İmza atmasa, Sabir ilə Əli Nəzminin şeirlərini biri-birindən ayırmaq çox çətindir" [1, s.8]. Digər tədqiqatçıların da fikrincə, M.Ə.Sabirin vəfatından sonra istər "Molla Nəsrəddin"də, istərsə də "Məzəli", "Tuti", "Zənbur", "Babayi-Əmir" və s. kimi satirik jurnallarda, əsasən, "Şəmşirək", "Şəmşir", "Sijimqulu", "Kefsiz", "Məşədi Sijimqulu", "Sərsəri", "Şallax" imzaları ilə ən yaxşı şeirləri yazan Əli Nəzmi olmuşdur" [1, s.8]. Əli Nəzminin felyetonlarının daha canlı, daha oxunaqlı olmasının səbəblərindən biri də onun bu əsərlərində xalq ədəbiyyatından və danışıq tərzindən, atalar sözü və məsəllərdən istifadə etməsidir. "Əli Nəzminin felyetonları forma və məzmununa, ideya və bədii təsir qüvvəsinə, kəskin satira, mənalı gülüşlə zəngin olmasına görə nəzəri cəlb etməkdədir" [3, s.26].

## Əsas hissə / *Main Part*

Bu dövrdə insanların təhsildən uzaqlaşdırılması maarifçiliyin səviyyəsinin aşağı salınmasına, savadsızlığın, cahilliyin isə artmasına gətirib çıxarırdı. Ziyalılar xalqı heç olmazsa mətbuat vasitəsilə maarifləndirməyə çalışırdılar. Əli Nəzminin "Molla Nəsrəddin" jurnalının 1906-cı il 19-cu sayında dərc etdirdiyi "Söhbət" felyetonu da maarifçiliyə həsr olunub. O, bu əsərində bir gəncin Hacı ağaya müraciət edərək tələbələrin maariflənməsi məqsədilə yardım əlini uzatmasını istəyir. Gəncin aldığı cavab isə heç də təəccüb doğurmur. Çünki dövrün bir çox "hacı"sı kimi, onun həmsöhbəti də maarifçilik düşməni olduğunu çəkinmədən davranışıyla göstərir: "Necə? Mən helə çərən-pərənə pul-zad vermənəm, rəhmətlik uşağı, qəzeti küçədə oxuyanlardan mənim zəhləm gedir, sən hələ gətirib məscidül-hərəmə soxmaq istəyirsən?" [2, s.344]. Burada yazıçı Hacı ağanın timsalında təhsilə qarşı çıxanları hədəfə alır. İlk xahişindən müsbət cavab ala bilməyən gənc Hacıdan başqa məsələdə kömək istəyir. O, yetim uşaqlar üçün məktəb xərcini yığmaq lazım olduğunu bildirir, öz məhəllələrinin payına isə yeddi uşağın məktəb xərcinin düşdüyünü deyir. "Pulunu balta kəsməyən" dövrün "hacı"ları kimi, məhəllənin Hacı ağası da bu işə isti yanaşmır. Gənc ilk xahişində olduğu kimi, bu dəfə də xoş olmayan cavabla qarşılaşır. "Mənciyəz qələt elərəm... səvab olan işi mən yaxşı bilirəm...". Əli Nəzmi növbəti fikirlə insan hüquqlarının pozulduğunu göstərir, bu hallara müxtəlif don geyindirərək özlərini haqlı çıxaran, gücsüzlərlə qul kimi davranan məmurlar, hacılar və digər söz sahiblərinin iç üzünü açır: "Yetim oxumağı-zadı neyliyir? Əgər təmiz uşaqdı gəlsin mənim evimə. Qulluq eyləsin yemək-içmək verim, vəssalam... Get əqlini başına cəm eylə!.." [2, s.345].

Əli Nəzmi "Məşədi Sijimqulu" imzası ilə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi "Ay Molla Nəsrəddin əmi" felyetonunda dövrün bir neçə problemini işıqlandırıb. Kənd xəbərçisi Məşədi Sijimqulunun dərgiyə müraciəti əsasında tərtib edilmiş felyeton qəhrəmanın məktubunun jurnalda çap olunması üçün dil-ağız tökməsi ilə başlayır. Yüksək satirik yumor-

la yazdığı bu hissədə Əli Nəzmi əslində həmin dövrdə insanların ən sadə bir işinin belə kimləsə yalvarmadan, xahiş-minnət etmədən həll olunmadığını göstərir. Təqdim olunan bu yalvarışda verilən "Kişi, yoxsa sən də duymusan ki, mən kəndliyəm, tərəkəməyəm, qanacaqsızam, heyvanam, elmsizəm, nə olar, belə olanda, bunların eybi yoxdur. Səni and verirəm mənim bir dılqır başıma, mənim bu kağızımı çap elə!!!" [2, s.345], – fikriylə dövrün sadə insanının təhsilsiz, avam olmasına bir daha diqqət yönəldilir. Eyni zamanda həmin şəxslərin bunu dərk etdiyini, lakin vəziyyəti dəyişmək üçün heç bir şey etmədiklərini, cahilliklə mübarizə aparmaq əvəzinə, başlarını aşağı salıb dinmədən, kim nə desə ona uyaraq yaşamağa davam etmələrini təəssüflə vurğulayır.

Felyetonun qəhrəmanı burada Gəncədə müəllim kimi fəaliyyət göstərən dostu ilə söhbətindən bəhs edir: "...özü də gedib rus uşqolasında dərs verir, bir həylə urusun, erməninin, gürcünün içində!" [2, s.346] Bununla ədib dövrün kəndlisinin dünyagörüşünün nə dərəcədə geri olmasını, insanların dini, məişət və digər müxtəlif bəhanələrlə sivil cəmiyyətdən uzaq tutulmalarını tənqid edir. Avamlığın hökm sürdüyü cəmiyyətdə, əlbəttə ki, təhsilli, elmli birini qəbul etmək də asan məsələ deyil. Ə.Nəzmi "Haman pullularınız pullarını qumarə uduzub və cəriməyə və qaçaq qonaqlığına və həvayı nəfsə xərc edincə niyə bir məktəb açıb haman balaları məktəbdə oxutmursunuz ki, elmli ola və hansı dini-məzhəbə qulluq edir onu bilə və müsəlman ola" [2, s.346], – fikri ilə kasıbların elm öyrənmək istədiyini, lakin imkansızlıqdan bunu bacarmadığını, varlıların isə elmdən, təhsildən uzaq həyat sürməyə meyilli olmalarını yüksək sənətkarlıqla ifşa edir. Ədib "Sizin kimi olmaya ki, adınızdan qeyri və libasınızdan başqa heç bir əməliniz, rəftarınız müsəlmanə, islamiyyətə oxşamır!", – deməklə, dövrün söz sahiblərinin və imkanlı şəxslərinin, əslində din pərdəsi arxasında gizləndiklərini, islama zidd həyat sürdüklərini diqqətə çatdırır.

Əli Nəzminin "Molla Nəsrəddin" jurnalında işıq üzü görən "Kəndlilərin məişətindən" adlı felyetonunda bir kənd sakininin uşaq olarkən babasının ailəsinə danışdığı bir neçə əhvalat təsvir olunub. Bu əhvalatların hər biri həmin dövrdə hökm sürən təhsilsizlik, məişət problemləri, cahillik, avamlıq, dini gerilik kimi məsələlərə həsr olunub. "Buxarının sağ tərəfində rəhmətlik babam, sol tərəfdə rəhmətlik nənəm, nənəmin yanında rəhmətlik anam, anamın yanında iki bibim və səkkiz yaşında olan məndən dörd yaş kiçik bacım (ki, o günlər də qonşumuz Məşədi Qulam Hüseynə kəbin eləmişdik) oturmuşdu..." [2, s.353] Ədib burada əsrin əvvəllərində müsəlman ailələrində "dəb" halını almış qızların erkən yaşda ərə verilməsi məsələsinə diqqəti yönəldib. Ə.Nəzmi insanlara qadın hüquqlarının pozulduğunu təkcə bu misalla təqdim etmir. Ailənin ağsaqqalının nəql etdiyi növbəti hekayədə qadının azadlığının əlindən alınması, kölə həyatı yaşamağa vadar edilməsi göstərilir. Baba bu halla kəndlərin birinə köhnə dostunun dəvəti ilə getdiyi toyda rastlaşır. Dövrün bu böyük problemi dostların elə ilk söhbətindən aydın sezilir. "...dostumdan xəbər aldım ki, qardaş, toyu qardaşınamı eliyirsən? Yainki oğlunamı? Dostum qımışmış üzümə baxıb dedi: – Xeyr a... a kişi sən bilmirsənmi ki, mənim evdə ancaq üççə dənə arvadım var? Bular da lap qocalıb əldən düşüblər. İndi ona görə ki, bunlar iş görə bilmirlər, bizim Kəblə Hüseynqulunun qızını özümə kəbin eləmişəm ki, işi bir növ girliyə bilsinlər!" [2, s.354] Çoxarvadlılıq da bu felyetonda xüsusi qabardılır. Ədib qadınların sərbəstliyinin əllərindən alındığını, cəmiyyətdə, ailədə heç bir hüquqa sahib olmadığını, kölə statusuna məhkum edilmələrini yüksək sənətkarlıqla ifşa edir.

Babanın dili ilə təqdim etdiyi "Allah sənin imanını kamil eləsin ki, şəriəti əmələ gətirirsən" ifadəsilə müəllif həmin dövrdə məhz dini əsas gətirərək çoxarvadlılığa haqq qazandıranları hədəfə alır. Şəriətdən istifadə edən dövrün mollaları da felyetonun tənqid obyektlərindəndir. Bir çox məsələlərin həllində yaxından "iştirak edən" mollalar heç nədən çəkinmədən dindən öz mənafeləri üçün istifadə edir, bunu cəmiyyətdə belə də olmalıymış kimi qəbul etdirirlər. "Orada olan mollalardan biri mənə məlum elədi ki, buralarda birarvadlı kişi tapılmaz. Xüsusən bu Alası bığlı kəndində. Bəlkə kasıb-kusublar və əlindən qız qaçırmaq gəlməyənlər bir arvada qənaət eliyə... mən ki, kənd mollasıyam, üç arvadım var..." [2, s.355] Bununla belə, həmin

dövrdə qadın azadlığının mövcud olduğu bəzi əyalətlər, kəndlər də var idi. Bu isə əlbəttə ki, qadına kölə kimi baxanların xoşuna gəlmirdi və onlar da felyetonda ironik satira vasitəsilə tənqid atəşinə tutulurlar: "Bizim dağılmışda bir arvaddan artıq arvad almaq olmur. Xanpərilər başımızı kəfgir ilə yarırlar" [2, s.355].

Əli Nəzminin elmə böyük diqqət yetirən yazarlardan olması onun "Kəndlilərin məişətindən" adlı başqa bir felyetonunda özünü açıq büruzə verir. Bu felyetonda hadisələr yenə babanın dili ilə nəql edilir. Qocanın söhbətlərindən isə yenə də diqqəti xüsusi cəlb edən təhsil və təhsilə verilən dəyərdir. Baba kənd ağsaqqallarının məktəb açmaq məsələsini müzakirə etdikləri söhbətin üstünə gəlib çıxır. Belə aydın olur ki, sakinlər kənddə bir məktəb açmaq istəyirlər. Müzakirələrdən sonra söhbət pul məsələsinə çatır: "...söhbət gəldi yetişdi pul məsələsinə, biri dedi ki, pəh! Pul nəmənədi, beş manat mən verərəm, olmasın toyda qumardan udduğum yüz manatın beş manatı!! Biri dedi pəh, olmasın oğurladığım pambıqların pulunun on manatı!! Biri dedi olmasın filan, biri dedi behman..." [2, s.355-356] Ədib burada dövrünün daha bir ciddi problemini göstərməklə məmur özbaşınalığını, xalqın malını oğurlayanları tənqid edir. Təhsilin, maarifin nə olduğunu anlamayan cahil, avam, oğru insanların elmə maliyyə yatırması kimi paradoksu Əli Nəzmi məhz bu felyetonunda yüksək sənətkarlıqla diqqətə çatdırıb. Bu məktəbin hansı pullarla qurulacağını bilən və "...oğul, Allah qoysa, o məktəb açılanda səni o məktəbə qoyacağam!..", – deyən babanın timsalında isə cahil cəmiyyətin ən bariz nümunəsi göstərilib.

Əli Nəzminin "Məzəli" jurnalının 1915-ci il 9-cu sayında işıq üzü görən "Tərbiyə, yaxud zavallı Məmiş" adlı felyetonu dövrün cahillik, avamlıq kimi mənfi xüsusiyyətlərinin uşaqların tərbiyəsində "mühüm" rol oynadığına dair gözəl nümunədir. Burada övladlarının elm dalınca getməsini, təhsil almasını istəməyən valideynlərin müxtəlif "məharətləri" ifşa edilir. Burada cahilliyin qurbanı olan bir uşağın faciəsini əks etdirməklə, ədib dövrün azyaşlılarının öz doğmaları tərəfindən necə təhlükəyə sövq edilmələrini də yüksək sənətkarlıqla göstərib. Felyetonun tənqid obyekti dövrün tipik avam insanının nümunəsi olan Kəblə Qulamın timsalında övladına laqeyd olan bütün valideynlərdir. Şan-şöhrətin gözünü kor etdiyi Kəblə Qulam sonda 11 yaşlı oğlu Məmişin ölümünə səbəb olur. Kifayət qədər yaşı olsa da o, xoş olmayan işlərə baş qoşmaqdan çəkinmir: "Kəblə Qulam kişi çox qocalmışdı, ancaq düşkün deyil idi, saz idi. Və həmişə balaca uşaqları bir-biri ilə dalaşdırmağa və güləşdirməyə həvəsi və xoşu var idi, hələ bir gün olmazdı ki, öz oğlu Məmişi Qəribə Həsənin oğlu Sarı ilə görüşdürməsin!!" [2, s.366]

Oğlunu özündən həm yaşda, həm də cüssədə kiçik olan uşaqlarla döyüşdürməyi sevən və bununla lovğalanan Kəblə Qulam burada, eyni zamanda ədalətsizliyin də bir nümunəsi kimi təqdim edilib. Belə ki, uşaqların döyüşündə Sarı dəfələrlə Məmişi yerə çırparaq qələbə qazansa da, Kəblə Qulam bunu qəbul etmir, hər dəfə bir bəhanə taparaq uşaqları yenidən üz-üzə qoyur: "Kəblə Qulam başlardı ki, yox, bu hesab deyil, Məmişin ayağı daşa ilişdi, onun üçün yıxıldı", "Sarı indicə evdən gəlib, əlləri ip-istidir, amma Məmiş sabahdan burada mənim yanımdadır, soyuq əllərini dondurubdur, yaxşı tuta bilmir", "yox, bu səfər də yaxşı yıxa bilmədi, yerə bərk vura bilmədi, həm də Sarı hündür yerdə, ancaq Məmiş alçaq yerdə durmuşdu" kimi səbəblər gətirərək Sarının qələbəsinə kölgə salır, hətta uşağı başqalarının yanında danlamaqdan da çəkinmir. Müəllif Qulamın timsalında XX əsrin əvvəllərində insanların bir-birinə qarşı münasibətini, yaşa belə fərq qoymadan öz mənafeləri naminə bir-birilərini alçaltmağa can atdıqlarını gözəl nümunələrlə diqqətə çatdırır. Felyetonda sonda Sarının Məmiş üzərində qələbə çalması göstərilməklə, ədalətin gec də olsa bərpa olunmasına diqqət çəkilir.

Əlbəttə, həmin dövrdə baş verənlərə biganə qalmayan, mövcud problemlərin həlli üçün çalışan insanlar da az deyildi. Kəblə Qulamı bu pis vərdişindən çəkindirmək istəyənlər Məmişin daha səmərəli həyat sürməsinin, ən əsası isə təhsilə yiyələnməsinin vacibliyini hər dəfə ona bildirir, bu yoldan vaz keçməsini tövsiyə edirdilər. "...mən uşaq böyütməmişəm ki, verəm mollanın əlinə dəvə kimi xıxırdıb dizinə döysün?! Mənim oğlum elə belə yaşayacaqdır. Elm nəmənədir? Elm küçük yanında asıla-asıla gedir!" – Elmə, təhsilə bu cür yanaşan, avamlıq içində

itib-batan Kəblə Qulam və onun kimi düşünənlərin sonu da, əlbəttə ki, faciəli olur. Təəssüf ki, çox vaxt bədbəxt sonluqla həmin insanların özləri deyil, yaxınları üzləşir. Burada isə həmin faciə məhz Məmişi tapır. "…həman Məmişi bir özgə canlı uşaq güləşəndə yerə elə bərk vurubdur ki, uşağın başı dağılıb və bir neçə gündən sonra vəfat edibdir" [2, s.368]. Avam insanların ədalətsiz, haqsız qanunlarla idarə etdiyi cahil cəmiyyətin qurbanı çox vaxt uşaqlar olur ki, yazıçı bu felyetonunda həmin fikri bir daha diqqətə çatdırır.

Əli Nəzminin "Zənbur" jurnalının 1909-cu il 9-cu sayında Şəmşir təxəllüsü ilə dərc etdirdiyi "Maşallah" felyetonu təhsilsizlik, maarifsizlik məsələlərinə həsr olunan güclü əsərlərdəndir. Burada əsas tənqid obyekti avam cəmiyyətdir. Təhsildən kənar şəxslərin savadsızlığı, adi danışıq tərzləri felyetonda xüsusi diqqət cəlb edən məqamlardandır. "Maşallah, Gəncənin cəmi əsnaf və sənətkarları da bicləşib və ustalaşıbdır, maşallah, cuhuddan da bicdirlər, maşallah cümləsində as ari-intibah görünməkdədir, ələlxüsus bu şəhərin dəmirçiləri lap artıblar" [2, s.358] – burada ədib insanların bir-birinə münasibətinə toxunur. Xüsusilə zəif insanların əzilməsi felyetonda ustalıqla qabardılır. O, istehzalı yumorla dövrün insanları arasında geniş yayılan daha bir problemə diqqət yönəldir. Vəzifəsindən istifadə edib başqalarını alçaltmaq, onlar üzərində ağalıq etmək məmurların, iş adamlarının yaxşı bacardıqları xarakter kimi təqdim edilir.

Ədib "Zənbur" jurnalının 1909-cu il 10-cu nömrəsində dərc etdirdiyi "Daha düzəldi" felyetonunda dövrünün demək olar ki, bütün problemlərini satirik ustalıqla bir arada cəmləyib. "Bəli, daha işlər düzəlib getdi! Daha cəmi əyrilərimiz düzəlib, sınıqlarımız bitdi!" [2, s.358] ifadələri ilə başlayan felyetonda yumor və kinayə birgə təqdim olunmaqla, zəmanənin çatışmazlıqları qabardılır. Mövcud problemləri sadalayaraq onların düzəldiyini, aradan qaldırıldığını ironiya ilə yazan Əli Nəzmi, əslində heç bir şeyin dəyişmədiyini, əksinə, geriyə doğru getdiyini ürək ağrısı ilə göstərir. O, burada janrın əsas xüsusiyyətlərindən olan kinayədən yerində istifadə edərək yazının təsir gücünü artırıb – "Daha kimlərə məsxərə eliyəcəyik?! Kimin eybini yazacayıq..." Felyetonda ədib əsrin əvvəllərində mövcud olmuş dil, din, qadın azadlığı və hüquqsuzluğu, təhsilsizlik, cahillik, avamlıq, özbaşınalıq kimi məsələlərin düzəldiyini istehza ilə yazmaqla, əslində heç bir problemin həll olunmadığını göstərir.

İnsanların dini inanclarına, şəriətə dair bir sıra gözəl əsərlər yazılıb. Onlardan biri də Əli Nəzminin "Moizə" felyetonudur. Məşədi Sijimqulu imzası ilə "Molla Nəsrəddin"in 1914-cü il 8-ci sayında dərc olunmuş bu felyetonda ədib təhsilə qarşı çıxan, cahilliyə, avamlığa düçar insanların böyük əksəriyyətinin düşüncələrini, gündəlik həyat tərzlərini şəriətlə bağladıqlarını, eləcə də eşitdikləri hər şeyə inandıqlarını, düzgün olmadığını bildikləri halda, ədalətsizliyə, qeyri-bərabərliyə etiraz etmək gücündə və istəyində olmadıqlarını göstərir.

Ədib bu felyetonda qadınların hüquqlarının hər yerdə pozulduğunu da qabardır. O, verilmiş bir nümunə ilə eyni zamanda dövrün bəzi qadınların azadlıqlarının məhdudlaşdırılmasına etiraz etdiklərini diqqətə çatdırır: "Düzdür, həzrətin arvadı "ya Xəlilullah, sən çağırdın ancaq müsəlman kişiləri. Bəs necə olar ki, möminə müslimə arvadlar bu nemətdən binəsib olsunlar, ha mənə də izin ver arvadları çağırım" [2, s.362], – deyə müraciət edərkən o, qadınların da moizə dinləməsinə imkan yaradır və arvadına izin verir. Bununla qadınların cəmiyyətdə sərbəst şəkildə görünməsi üçün çalışan insanların olduğu da göstərilir. Lakin buna baxmayaraq, maarifpərvər insanların cahilliyin öhdəsindən gələ bilmədikləri növbəti nümunə ilə bir daha təsdiqini tapır: "...görəsən nə onuz həzrət izn verib?! Arvadın səsi də naməhrəm deyilmi"?! [2, s.362].

## Nəticə / *Conclusion*

XX əsrin əvvəllərində cəmiyyətdə hökm sürən cahilliyin əsas səbəbi məhz maarifsizlik idi desək, yanılmarıq. Dövrün maarifpərvər ziyalıları, görkəmli ədəbiyyatşünaslarımız bu problemin aradan qaldırılması üçün əllərindən gələni edirdilər. Əlbəttə, bir ədəbiyyatçının, yazıçının,

jurnalistin bu mübarizədəki əsas silahı qələmi idi. Əli Nəzmi də məhz qələminin gücü hesabına, sənətkarlıq bacarıqları sayəsində ədəbiyyatımızda, mətbuatımızda gözəl nümunələr yaradıb, problemlərin, çatışmazlıqların aradan qaldırılmasında pay sahibi olub.

**Ədəbiyyat / *References***


1. "Dövrünə güzgü tutan Əli Nəzmi (metodik vəsait)". – Bakı: F.Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2018.
2. Əli Nəzmi. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2006.
3. BDU-nun Klassik Azərbaycan ədəbiyyatı kafedrasının 2006-2008-ci illər ərzində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında hesabatı. – Bakı, 2018.


## Проблемы начала XX века в фельетонах Али Назми


**Самира Гулиева**
Институт рукописей имени Мохаммеда Физули НАНА. Азербайджан.
E-mail: samiraguliyeva1@gmail.com



**Резюме.** Один из ярких представителей азербайджанской прессы, видный литературовед Али Назми в своем творчестве часто обращался к жанру фельетона. Ряд фельетонов одного из активных авторов журнала "Молла Насреддин" А.Назми затрагивает главные недостатки того времени. Как и его современники, он часто появлялся в периодической печати со своими произведениями, в которых освещались трудности, с которыми сталкивался народ, бытовые и общественно-политические проблемы.

Его фельетоны охватывают такие важные вопросы, как значение образования и просвещения, борьба против отсталости, суеверий, несправедливости, воспитание детей, борьба за права человека и женскую свободу и т.д. Перо выдающегося журналиста Али Назми было его главным оружием. Благодаря силе своего пера и своим художественным способностям он смог создать прекрасные образцы в нашей литературе и печати, был непримиримым борцом за благополучие нашего народа.



**Ключевые слова:** Али Назми, фельетон, пресса, литература, журнал "Молла Насреддин"